# İsrailin nümayəndə heyəti Qəbələdə səfərdə olub

***İsrailin Yokneam şəhər merinin başçılıq etdiyi nümayəndə heyəti Qəbələ rayonuna səfər edib.***

***Nümayəndə heyəti əvvəlcə ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri qoyub, ulu öndərin əziz xatirəsinə öz ehtiramlarını bildirib.***



Qonaqlar sonra Qəbələ Mədəniyyət Mərkəzində milli muğam üçlüyünün və "Zopu-zopu" folklor etnoqrafik rəqs ansamblının ifalarına tamaşa edib.

Qəbələ ilə daha yaxından tanış olan qonaqlar "Gilan" Qida Şəhərciyində müəssisədə gedən istehsal prosesini, həmçinin hazır məhsulların qablaşdırılması mərhələsini izləyib.





Daha sonra nümayəndə heyəti Qəbələ Regional "ASAN xidmət" Mərkəzində olub. Mərkəzin inzibati binası ilə tanış edilən nümayəndə heyətinə "ASAN xidmət" mərkəzinin iş prinsipi, burada həyata keçirilən sosial aksiyalar və maraqlı layihələr haqqında ətraflı məlumat verilib. Qonaqlar "ASAN xidmət" mərkəzində fəaliyyət göstərən əməkdaşların, eləcə də könüllülərin fəaliyyətini yaxından izləyib, "ASAN ödəniş" terminallarının iş prisipi ilə maraqlanıblar.





Nümayəndə heyəti Qəbələ Rayon İcra Hakimiyyətinin inzibati binası və Heydər Əliyev Konqres Mərkəzi ilə də tanış olub.

Konqres Mərkəzində keçirilən ikitərəfli görüşdə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev İsrailin Yokneam şəhəri merinin başçılıq etdiyi nümayəndə heyətinə Qəbələnin tarixi, iqtisadiyyatı, sosial və mədəni həyatı barədə ətraflı məlumat verib.

Səbuhi Abdullayev bildirib ki, Qəbələnin təbiəti qədər zəngin olan keçmişi Azərbaycan tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. Qonaqlara qədim Qəbələ şəhərinin bu günə gəlib çatan qalıqları, o cümlədən qala divarı və burada aparılan arxeoloji qazıntılar zamanı əldə olunan maddi-mədəniyyət nümunələri barədə ətraflı məlumat verən rayon icra hakimiyyətinin başçısı Qəbələnin cəlbedici turizm bölgəsi olması ilə yanaşı, beynəlxalq əhəmiyyətli mədəniyyət və incəsənət tədbirlərinə, idman yarışlarına da ev sahibliyi etdiyini vurğulayıb.

İsrailin nümayəndə heyətinə başçılıq edən Yokneam şəhərinin meri Simon Alfasi də öz növbəsində səfərlərinin çox böyük əhəmiyyət kəsb etdiyini bildirib. O, Yokneam və Qəbələ şəhərləri arasında olan qarşılıqlı əlaqələri yüksək qiymətləndirib. Simon Alfasi təbiətin Qəbələyə bəxş etdiyi füsunkar gözəlliklərin canlı şahidi olduğunu diqqətə çatdırıb. Mədəniyyət və turizm sahəsində qarşılıqlı əməkdaşlıq əlaqələrin davam etdirilməsindən söz açan israilli qonaq bunun Yokneam və Qəbələ şəhərləri arasında iqtisadi əməkdaşlığın və turizmin inkişafına təkan verəcəyini qeyd edib.

Görüş zamanı Yokneam şəhərinin meri Simon Alfasi və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev tərəfindən "İsrail Dövlətinin Yokneam şəhəri və Azərbaycan Respublikasının Qəbələ Rayon İcra Hakimiyyəti arasında münasibətlərin yaranması haqqında memorandum" imzalanıb.

İmzalama mərasimindən sonra tərəflər bir-birinə xatirə hədiyyələri təqdim edib.

Səfər zamanı nümayəndə heyəti rayonda fəaliyyət göstərən digər sənaye müəssisələri, müasir memarlıq üslubunda inşa olunan tikililər, tarixi abidələr və turizm obyektləri ilə yaxından tanış olub.

Qonaqları İsrailin ölkəmizdəki səfiri Dan Stav müşayiət edib.

**"Qəbələ"**
**Fotolar İlkin Vəlizadənindir.**

# Bayrağımız qürurumuzdur

Azərbaycan dövlətçiliyinin ilk bayrağı 1136-1225-ci illərdə hökm sürmüş Atabəylər (Eldəgizlər) dövrünə aiddir. Atabəy Şəmsəddin Eldəgizin fərmanı ilə tərtib olunmuş göy rəngli bayrağın üstünə qartal şəkli həkk olunmuşdu. Qeyd edək ki, Azərbaycanda xanlıqlar dövründə də hər xanlığın özünə məxsus bayrağı olmuşdur.

1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyətinin yarandığı ilk dövrlərdə Dövlət bayrağı Osmanlı Türkiyəsinin bayrağı kimi qırmızı rəngdə olmuşdur. Uzun müzakirələrdən sonra 1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cumhuriyyəti Nazirlər Kabinetinin qərarı ilə Azərbaycanın Dövlət bayrağı üç rəngli (mavi, qırmızı, yaşıl) qəbul edilmiş, ortasında, qırmızı rəngin üzərində ağ rəngdə aypara və səkkizguşəli ulduz həkk olunmuşdur.

Həmin gün Azərbaycanın üç rəngli bayrağı hökumət binasının (indiki Azneft meydanındakı neft şirkətinə məxsus binanın) üzərində dalğalanmışdır.

Dövlət bayrağımızda yuxarıdakı mavi rəng türklüyün, ortadakı qımızı rəng müasirliyin, aşağıdakı yaşıl rəng islamın rəmzidir. Bayrağın qırmızı rənginin üzərində ağ rəngdəhəkk edilmiş Aypara islam rəmzi kimi qəbul olunur. Səkkizguşəli ulduz haqqında fikirlər müxtəlifdir.

1920-ci ildə Azərbaycanda Sovet Hakimiyyəti qurulduqdan sonra üçrəngli bayraq ləğv olunmuşdur.

1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin təklifi və təkidi ilə Azərbaycan Xalq Cumhuriyyətinin üçrəngli Dövlət bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olunmuşdur.

1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan Respublikası Dövlət Müstəqilliyi Aktını, eyni zamanda Azərbaycan Xalq Cumhuriyyətinin üçrəngli bayrağını Dövlət bayrağı kimi qəbul etmişdir.

Azərbaycan Xalq Cumhuriyyətinin varisi olan müstəqil Azərbaycanımızda üçrəngli Dövlət bayrağının Azərbaycan Xalq Cumhuriyyəti Nazirlər Kabinetinin üzərində dalğalanmağa başladığı 9 noyabr günü Dövlət Bayrağı Günü kimi qeyd olunur.

**Qüdrət SƏMƏDOV.**